**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN**

**9 dekabr 2022-ci il tarixli**

**QƏRARI**

Dissertasiya şurasında müdafiə prosedurunun pozulduğu aşkar edildiyi halda Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin 6.19-cu bəndinə uyğun olaraq Komissiyanın Rəyasət Heyəti tərəfindən dissertasiyanın təkrar müdafiəsinin keçirilməsi barədə qərar qəbul edildikdə iddiaçının dissertasiya və attestasiya sənədləri geri qaytarılmır.

Komissiyanın Rəyasət Heyətinin qərarı əsasında dissertasiyanın təkrar müdafiəsi keçirildiyi halda elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi müdafiənin təkrar keçirildiyi qeyd edilməklə iddiaçıya elmi dərəcə verilməsi haqqında Komissiya qarşısında yeni vəsatət qaldırır. Yeni vəsatətə yalnız təkrar müdafiənin keçirilməsi ilə əlaqədar olan sənədlər əlavə edilir.

Təkrar müdafiə keçirilmədiyi halda prosedur pozuntusuna görə imtina edilmiş işlər Komissiyanın arxivinə verilir.